**AŞIQ GÜLABI**

# MƏN OLMAYANDA

**«Elm və təhsil»**
**Bakı – 2013**

***Kitab AMEA Folklor İnstitutunun***
***Elmi Şurasının qərarı ilə çap olunur***

**Redaktoru, tərtibçisi**
**və çapa hazırlayanı:** **Elxan Məmmədli**
*filologiya üzrə fəlsəfə doktoru,*
*Əməkdar mədəniyyət işçisi*

**Toplayanı:** **Şahin Gülabı oğlu**

**Aşıq Gülabı Xındı Məmməd oğlu. Mən olmayanda.**
**Bakı. "Elm və təhsil". 2013. 112 səh.**

Aşıq Gülabı Xındı Məmməd oğlunun oxuculara təqdim etdiyimiz "Mən olmayanda" adlı kitabı müəllifin yeganə kitabıdır ki, vəfatından sonra çap olunur. Kitaba aşığın əldə olan bir sıra gəraylı, qoşma, divaniləri daxil edilmişdir. Oxucular bir sıra qələm adamlarının aşığa həsr edilmiş bir neçə şeirləri ilə də tanış ola biləcəklər.

4702000000
_________
N098 – 2013

**© "Elm və təhsil" 2013**

## SAZIN GÜLABISI,
## SÖZÜN SƏRRAFI

Gülabı Xındı Məmməd oğlu (Vəliyev) Borçalı aşıq Mühitinin son 50 ildə yetirdiyi çox istedadlı sənətkarlardan biri idi. Ötən yüz illiyin əllinci ilində sentyabr ayının 5-də Borçalının Böyük Muğanlı kəndində ustadlar ustadı Xındı Məmmədin ocağında dünyaya gəlmişdi. Mübaliqəsiz demək olar ki, gələcəkdə Gülabının mükəmməl bir aşıq olması üçün Xındı Məmməd adı, bu adın şöhrəti və məsuliyyəti kifayət idi. Xoşbəxtlikdən Gülabının dünyaya gəlişi Borçalı aşıq mühitinin intibah dövrünə təsədüf etmişdi. Kim idi o dövrün aparıcı aşıxları? – Aşıq Sadiq Sultanov, Aşıq Məmməd Sultanov, Aşıq Alxan Qarayazılı, Aşıq Əmrah Gülməmmədov, Aşıq Hüseyn Saraclı, Aşıq Almaz, Aşıq Kamandar, Aşıq Əhməd Sadaxlı, Aşıq Məhəmməd Sadaxlı, Aşıq Mərdanə Hüseyn, Aşıq Ziyəddin Qırıxlı, Aşıq Aslan Kosalı, Aşıq Nurəddin Qasımlı və başqa aşıqlar zaman-zaman bu sənəti

ucaltdılar və özləri də elin yaddaşında qaldılar. Adlarını çəkdiyim sənətkarların bir çoxu mərhum Xındı Məmmədlə bir sırada Aşıq sənətinin mənəvi yükünü ləyaqətlə daşıyan ustadlar idi, bir qismi isə bu mənəvi yükü bir estafet kimi mənimsəyib qəbul edən və onu qeyrətlə təbliğ edib qorumağı bacaranlar idi. Xatırladığımız ustad aşıqlar silsiləsindən iki nəfər – Aslan Kosalı ilə Məhəmməd Sadaxlı mənalı ömürlərinin 84, 85-ci illərini yaşamaqda davam edirlər. Borçalı aşıqlığının sütunları hesab edilən bu sənətkarları bir nəfər kimi öz saz-söz ocaqlarında atası Xındı Məmmədlə bir yerdə görmüşdü Gülabı. Gələcəyin sənətkarı üçün belə bir canlı mühitin olması çox böyük şərt idi.

Bəli, Gülabı belə bir qaynar, son dərəcə dinamik və cazibədar bir saz-söz mühitində öz kövrək qədəmlərini atmağa başladı. Dədə Əmrahın incə barmaqlarının sehrindən, Aşıq Sadiqin, Xındı Məmmədin, Alxan Qarayazılın hikmət boxçasından, Hüseyn Saraclının müdrik dastanlarından, Aşıq Kamandarın şaqraq səsindən və meydangirliyindən güc aldı Aşıq Gülabı.

1968-ci ildə atası Xındı Məmmədin dünyadan köçməsi on səkkiz yaşlı Gülabını sarsıdıb ruhdan salsa da, mayasında saz qeyrəti və təəssüfkeşliyi olan Gülabı tezliklə özünə gəldi. Xındı Məmməd ocağını sazsız-sözsüz qoymadı. Artıq yetmişinci illərin əvvəllərindən sayılıb-seçilməyə başladı. Toylar toy üstünə qalandı. Sazda Əmrah çeşməsindən qidalanan bu

gənc, öz məlahətli səsi ilə də tay-tuşlarından seçilməyə başladı. Saza-sözə olan bu sonsuz məhəbbət ona üç il təhsil aldığı Azərbaycan Politexnik İnistutunu bitirməyə də imkan vermədi. Babalardan gələn- şərəflə, qeyrətlə millətə, xalqa xidmət edən aşıxlığa söykəndi, ömrünün sonuna qədər bu sənətin mahir təmsilçilərindən biri oldu. Yetmişinci illərdən başlayaraq onun sazı və özü tanınmağa başladı. Bakı Ali məktəbləri müsabiqələrində tez-tez diqqəti çəkməyə başladı. 1976-cı ildə Səməd Vurğunun anadan olmasının 70 illiyinə həsr olunmuş müsabiqədə ilk dəfə olaraq birinci yerə layiq görüldü. (Qazaxda)

Bu tədbiri Azərbaycan tele-radio verilişləri o zaman geniş nümayiş etdirdikdən sonra Gülabının sənətinə pərəstiş edənlərin sayı bir qədər də artmağa başladı. Beləliklə Borçalı toylarında və onun inzibati sərhədlərindən kənarda gənc Gülabının şöhrəti günü-gündən artmağa başladı. Bir sözlə, onun vaxtilə özünün də dediyi kimi, bir ustadı da məclislər, ağı-qaradan seçən xiridarlar oldu. Belə məclislərdə sınaqdan çıxa-çıxa Gülabı özü də kamil ustadlar cərgəsinə qoşuldu, böyük şöhrət qazandı, və hörmət sahibi oldu. Uzun illər şərəf və ləyaqətlə sənətə qulluq elədi, təmizliyini, ləyaqətini, qeyrətini qorudu həmişə. Özündən sonra gələnlər üçün də örnək oldu Gülabı. Gülabı zaman-zaman gəncliyimizin saza gəlişində də böyük işlər gördü. Özünün saz məktəbini yaratdı. Yaşadığı Böyük Muğanlı kəndində uzun illər aşıxlığın sirrlərini körpə və gənc balalarımıza öyrət-

məkdən yorulmadı. Çox keçmədi ki, Borçalıda saz-solo ifaçılığı sahəsində bir Gülabı üslübü boy verdi. Öz bənzərsiz ifası ilə böyük rəğbət qazanan Gülabı bu üslubu, sazın bu dadını-tamını, şəhdini-şəkərini şəyidlərinə də mənimsədə bildi. Və bu gün Gülabının Saz üslubu onun ölümündən sonra bir sıra saz-solo təqdimatçılarının ifalarında da hiss olunmaqdır. Xüsusilə Gülabının solo müqəddimələri, onun saz ifaçılığına gətirdiyi bir çox xallar, güllər müşahidə etdiyimiz müasir saz-solo ifaçılarının bir çoxunda tez-tez təkrar olunmaqdadır.

Ötən əsrin doxsanıncı illərinin əvvələrindən başlayaraq Azərbaycanda olduğu kimi, Gürcüstanda da siyasi abı-hava dəyişməyə başladı. Dövlət səviyyəsində Borçalıda yaşayan soydaşlarımıza təzyiqlər hökm sürdü. Özünü demokratiya carçısı kimi qələmə verməyə çalışan bədnam Kamsaxurdiya rejimi borçalıların ümumiyyətlə deportasiya məsələsini gündəmə gətirmişdi. Hər yüerdə soydaşlarımız təhqir olunur, təzyiqlərə məruz qalır, işdən qovulur, hətta tanınmış və nüfuzlu adamlar oğurlanır, evlərə basqınlar olurdu. Bu dövrdə Gürcüstanın bəzi rayonlarında azərbaycanlılar yaşayan kəndlərin adları belə dəyişdirilirdi. (Təəssüflər olsun ki, indinin özündə də Bolnisi rayonun gürcücəyə dəyişdirilən kəndlərinin heç birinin qədim adı bərpa olunmamışdır. E. M).

Belə bir kritik şəraitdə sənətkarların da vəziyyəti ağırlaşmağa başladı. Günü-güzaranı, ruzisi-çörəyi toylardan, xeyir işlərdən çıxan sənətkarlar, xüsusən də

aşıqlar çox gərgin günlərini yaşamağa başladılar. Mahalda durumla ilgili xeyir işlərin, toyların sayı kəsgin şəkildə azaldı. Saz-söz diyarı kimi tanınan Borçalı mahalının üzdə olan sənətkarlarının bir çoxu məcburən Azərbaycana, xüsusən Bakı şəhərinə, Rusiyaya və digər xarici ölkələrə üz tutmağa başladı. Təbii ki bu sıxıntıya dözməyərək, obyektiv səbəbdən Gülabı da ailəsini və sazını götürərək Bakıya üz tutdu. Təxminən 17-18 illik sənət və fiziki ömrünü Bakıda yaşamalı oldu. Burda da onu sevdilər, başa çəkdilər, sənətinə yüksək qiymət verdilər, onu mükəmməl bir sənətkar kimi saydılar. Gülabı uzun illər Bakının müxtəlif şadlıq evlərində Xındı Məmməddən yadigar qalan qara – tavar sazını bağrına basıb neçə-neçə toylar yola saldı. Bütün bunlarla yanaşı Gülabı öz müəllimlik peşəsini də davam etdirirdi. Ona bu şəraiti yaratmışdılar. Gülabı dünyasını dəyişənə qədər səhhətindəki ciddi problemlərə baxmayaraq saz dərslərini də davam etdirirdi. O, həm də buna məcbur idi. O işləməli idi, özünə də, ailəsinə də ruzi aparmalı idi. Və bu şəraiti ona Bakının 8-ci km qəsəbəsində uzun illərdən bəri fəaliyyət göstərən “Borçalı ocağı” ticarət mərkəzi, xüsusən onun son dərəcə xeyirxah rəhbəri Alim qardaşımız təmənnasız olaraq yaratmışdı. Bu, elə bilirəm təkcə Gülabıya yox, həm də Azərbaycan aşıq sənətinə olan böyük hörmət idi. Allah ondan razı olsun.

Gülabı ilə münasibətlərimiz ötən əsrin 80-ci illərindən başlamışdı. Bu o zaman idi ki, istər efirdə, ekranda, istərsə də toy şənliklərində bizlərə yad olan

gitara musiqi aləti tarı da, sazı da üstələmişdi. Demək olar ki, çox adamlar bu zərərli "dəb"ə üstünlük verərək toylarda saz, tar əvəzinə gitaranı görmək istəyirdilər. Gitara ifaçıları elə bil ki, xüsusi status qazanmışdı. Yüksək musiqi qavrayışına və çoxçeşidli Azərbaycan musiqisinə dərindən bələd olduğuna görə Gülabı bu vəziyyətdən çıxış yolu olaraq məclislərə gedəndə özü ilə həm saz, həm də gitara apardı. İnsafən, Gülabı muğamlarımızı, rəqs və xalq havalarımızı istər gitarada, istərsə də sazda mükəmməl ifa edirdi. O dövrdə çox ifaçılar dədə-babadan ərməğan qalan ana sazımıza arxa çevirdilər, birbaşa gitara aləti ifaçısı oldular. Gülabı isə vəziyyətə uyğun olaraq qoymadı "nə şiş yansın, nə də kabab".

Məclislərdə gitara alətimin meydan sulaması bir çox ziyalılar kimi, məni də narahat edirdi. Və mən 1981-ci ildə Aşıq Kamandara yazdığım bir qoşmamda bu etirazımı aşağıdakı şəkildə bildirmişdim:

***...El aşığı çəkər elin nazını,***
***Elə verər səsini, avazını.***
***Aşıq da var dədəsinin sazını,***
***Dəyişibdi gitaraya, Kamandar.***

Yaxşı yadımdadır, bu şeir qəzetdə nəşr olunandan sonra sazdan gitaraya keçənlərin çoxusu məndən incidi. Günlərin bir günü eşitdim ki, hələ həyatda üz-üzə gəlmədiyim Gülabı da məndən möhkəm inciyib. Sonralar bir neçə dəfə görüşdük, bir-birimizi yaxından tanıdıq. Ona sübut elədim ki, bu şeirin ona qətiyyən

dəxli yoxdur. Söhbət təkcə gitaranın saz və tarı sıradan çıxarmağından getmirdi. Ümumiyyətlə, əcnəbi musiqi alətlərinin ümumazərbaycan musiqi alətlərini sıradan çıxarmasından gedirdi. Nə yaxşı ki, sonrakı illərdə bu işlər bir qədər sahmana düşdü.

Gülabı ilə aramızda olan anlaşmamazlıqlar təbii ki, tezliklə aydınlaşdı. Və mənim 1996-cı il mayın 4-də Gülabının doğma kəndində Xındı Məmmədin anadan olmasının 100 illiyində iştirak etməyim, bir neçə gün Gülabı ilə onların evində qalmağım bizim münasibətlərimizdə müsbət mənada böyük bir dönüş yaratdı. O yubiley tədbirində Azərbaycan radiosunda aparıcısı olduğum "Sarıtel" verilişinin üç həftəlik (hər veriliş 55 dəqiqə) proqramını Xındı Məmmədə həsr etdim. Sonra Gülabı ilə mütamadi görüşlərimiz başladı. İlk dəfə Gülabıya televiziyanın " Sazın-sözün sehrində" verlişində proqram hazırladım. Həmin vaxtlardan dəfələrlə Gülabı radioda "Gözəlləmə" və "Sarıtel" verilişlərində qonağım oldu. Beləcə biz qardaşlaşdıq, dostlaşdıq. Bir-birimizin xeyrində-şərində bir yerdə olduq. Oğlu Şahinin, mərhum qardaşı professor Lətif Vəliyevin böyük oğlu Məmmədin toylarında Gülabının xahişi ilə tamada oldum. Hətta dünyaya təzə gələn oğul nəvəsi Ayxan balanın adını da mən qoydum. O vaxtdan illər keçir, artıq Ayxan bala yeddinci sinifə keçib. Bu olanlar hamısı mənim üçün böyük xatirələrdir. Əslində Gülabı ilə xatirələrim, fikir və qənaətlərim çoxdur. Qismət olsa onun haqqında sağlığında deyə bilmədiyim, yaza bilmədik-

lərim fikirlərimi gələcəkdə ayrıca kitab halında təqdim etmək niyyətindəyəm. Bu məqamda isə istərdim ki, Gülabının sənəti, şəxsiyyəti ilə bağlı bir qədər də danışım.

Sənətkar kimi, xüsusən də saz-solo ifaçısı kimi mənim qənaitimdə Gülabı Aşıq Əmrah sənətindən güc alan, bu təməl üzərində xariqələr yaradan, lakin öz yolu olan, özü üslubu olan sənətkar oldu. Gülabı heç kimə bənzəmədi. Sazın pərdəsinə toxundurduğu ilk barmaqdan, ilk müqəddimədən tanınan Gülabı hər ifasında melodiyanın süjet xəttini ardıcıl gözləyə bilirdi. Gülabı yüzə qədər klassik saz havasının hamısında özünün dəsti-xəttini tanıda bilirdi. Təkcə "Yanıq Kərəmi" dən başqa. Həmişə öz aramızda söhbət düşəndə etiraf edirdi ki, "Yanıq Kərəmi"də Ədalət Nəsibovun təsirindən çıxa bilmirəm.

Gülabının məlahətli, həm də cəzbedici səsi var idi. Sonralar xəstəliyi ilə əlaqədar olaraq Gülabı oxumadı. Ancaq günlərin bir günü ərkyana onu " məcbur,, edib oxutdum. Düz bir saat oxudu Gülabı. Həmin ifanın 30 dəqiqəsini 1998-ci ildə "Gözəlləmə" musiqi proqramında səsələndirdik. Hazırda həmin veriliş həm Azərbaycan radiosunun, həm də Dövlət Səslər arxivinin fondlarında qorunmaqdadır.

Ustad Gülabı səsinə daha bel bağlamırdı. Onun əvəzində gözəl şeirlər qoşmağa başlamışdı. Bu gün Gülabının əlimizdə olan şeirlərinin tarixi də onu göstərir ki, Gülabı şeir yaradıcılığına əsasən oxumağı tərgitdikdən sonra 1992-1993-cü illərdən başlayıb.

Özü də insafən desək, çox yaxşı da başlayıb. Mən bu yazımda həmin şeirlərin poetik məziyyətlərindən, onların mövzu rəngarəngliyindən, forma çeşidindən danışmaq niyyətində deyiləm. Bunu oxucuların ixtiyarına verirəm. Qoy hörmətli oxucularımız Gülabını oxusunlar və öz qiymətlərini versinlər. Kitabla tanış olduqdan sonra inanıram ki, hər bir oxucu o qənaətə gələcək ki, Gülabı sazda heyrətləndirdiyi kimi, sözdə də heyrətamizdir. Çox səmimi, kövrək bir aşıq-şair olduğu kimi, həm də kövrək qəlb adamıdır Gülabı.

Gülabı gözəl dost idi, özü də sədaqətli dost idi. Gülabı qayğıkeş bir insan idi, vətənpərvər, dilini, xalqını, millətini sevən bir varlıq idi. Əmin edirəm ki, bu dediklərimi onun şeirlərindən, eyni zamanda Gülabını tanıyan söz adamlarının kitaba daxil etdiyimiz şeirlərindən də görəcəksiniz. Mən buna əminəm.

Mən bu kitabı nəşr etməyi mərhum dostum Gülabının həyatdan köçməyinin "40-ı" mərasimində söz vermişdim. Söz vermişdim ki, onun şeirlər kitabını vəfatının şeirlər kitabını vəfatının 1 ili münasibəti ilə (8 iyun 2012-ci ildə vəfat edib. Müqəddəs məzarı Bakının Sulutəpə qəbristanlığındadır) nəşr etdirəcəyəm. Bu gün Gülabının ruhu qarşısında hesabat verirəm – əziz dostum, təkrarolunmaz sənətkar qardaşım, sazımızın-sözümüzün Gülabısı, ruhun şad olsun, sənin dillər əzbəri olan şeirlərin, onun-bunun dilində müəllifi danılan şeirlərin artıq işıq üzü gördü. Ruhun nigaran qalmasın. Onu da ruhuna çatdırmaq istəyirəm ki, sənin vəfatından 4-5 ay sonra qardaş həsrətinə dözə

bilməyən, dünyasını dəyişən qardaşın Əşrəf Xındı Məmmədoğlunun şeirləri də əlimizdə nəşrə hazır vəziyyətdədir. Çalışacağıq ki, yaxın günlərdə o kitabın nəşrini də reallaşdıraq.

Hər ikinizin ruhunuz şad olsun, vaxtı məlum olmayan zamanda görüşənə qədər.

**Hörmət və böyük dualarla:**
**Elxan Məmmədli**

# DИVANИLЯR

# LAİLAHƏ-İLLALLAH

Dərk eylədim haqqa yetdim, Lailahə-İllallah!
Gecə-Gündüz səcdə etdim, Lailahə-İllallah!
Rəbbimə iman gətirdim, düşmədim əyri yola.
Sübhanallah, Sübhanallah! Lailahə-İllallah!

Peyğəmbərə səda gəldi, Ya Rəsulallah dedi!
Yer üzünə hakim olar, İslam inşaallah dedi.
Əliyə möcuzat verdi, "Şirim maşaallah" dedi.
İnam eylə, insan oğlu, Lailahə-İllallah!

İnanmışam cəlalına, etiqad eyləmişəm,
Üz qoymuşam dərgahına, etimad eyləmişəm.
Özün yetir harayıma, iltimas eyləmişəm.
Gülabıyam, əzbərimdi, Lailahə-İllallah!

***31.10.1994***

## DANIŞ

Ustad oğlu, götür sazı, bir xoş lisandan danış,
Əhli urfan məclisində şövkəti-şandan danış.
Oxuyanda kamil oxu, eşidən "əhsən" desin.
Məclisin arəstə olsun, cəhli-meydandan danış.

Məclisə ayaq qoyanda rəhmət söylə ustada,
Çağırginən Şahlar-şahın, qoy yetirsin imdada.
Gecə-gündüz dilək dilə, ərənlər gəlsin dada,
Sidqin bağla beş kimsəyə, sirri sübhandan danış.

İbadət eylə, Gülabı, İmama rəhmət söylə,
Nifrət eylə sən Şümürə, Yezidə nəhlət söylə.
Haqq yoluna gələnlərə hörmət-mərifət söylə,
Bilməyənlər qoy bilsinlər, kandan, məkandan danış.

***01.10.1994***

# GƏRAYLILAR

## AŞIQ İBRAHİMƏ

Bu dünyanın işlərindən,
Ağlın nə kəsir, İbrahim?
Zəmanənin bəd küləyi
Nə yaman əsir, İbrahim!

Bivəfa, fani dünyada,
Nəyim var vermişəm bada.
Bu qədirbilməz  obada,
Qalmışam yesir, İbrahim!

Necə dözüm bu dağlara,
Qəlbim olub para-para.
Gülabıyam, xəyallara,
Olmuşam əsir, İbrahim!

***10.09.1993***

## TOPAĞIMA DƏYMƏ, DƏYMƏ

Yağı düşmən, çək əlini,
Torpağıma dəymə, dəymə!
Kəsərəm yaltaq dilini,
Torpağıma, dəymə, dəymə!

Buğos, petros, arşak, araş,
Vazgen, petrosyan, balayan,
Yediyiniz olsun haram,
Torpağıma dəymə, dəymə!

Haradasan, qoç Koroğlu,
Giziroğlu, Dəmirçioğlu,
Baş aparır bu hay oğlu,
Torpağıma dəymə, dəymə!

Gülabıyam hayqıraram,
Nanəcibnən yoxdu aram.
Düşmənlə hər zaman varam
Torpağıma dəymə,dəymə!

***24.10.1993***

# KÖNLÜM

Bu dünyanın hər yükünü,
Alan könlüm, alan könlüm.
Dərdi-qəmin zil kökünü,
Çalan könlüm, çalan könlüm.

Dövran məni yaman kəsir,
Üstümdən xəzanlar əsir.
Sənəmi qalıb bu dərdi-sirr,
Viran könlüm, viran könlüm.

Zəmanənin hay-harayı,
Saçlarımı qəm darayı.
Ömrümün büllur sarayı,
Talan könlüm, talan könlüm.

Sozalır, ömrüm sozalır,
Ah-naləm göyə ucalır.
Namərdlər mərddən bac alır,
İnan könlüm, inan könlüm.

Gülabını dərd alıbdı.
Gül irəngi saralıbdı.
Desələr şeş-beş atıbdı,
Yalan könlüm, yalan könlüm.

***16.11.1993***

## CƏLİLİM, CƏLİLİM

*Borçalının mərd oğlu Azərbaycanın milli qəhrəmanı Cəlil Əziz oğlu Səfərova*

Bu xəbər sarsıtdı məni,
İnan, Cəlilim, Cəlilim.
Dərd yaman sızlatdı məni,
Yaman, Cəlilim, Cəlilim.

Hay versən, ay elim-obam,
Düşmən bağrını yararam.
Dur məzardan, Emin babam,
Aman, Cəlilim, Cəlilim.

Hanı Əziz müəllim, hanı?
Niyə soldurdun Sonanı?
Yandırdın yazıq ananı,
Yanan Cəlilim,Cəlilim.

İgid vəfasız olarmı?
Tez açılıb tez solarmı?
Axtarıb-anan olarmı?
Anan Cəlilim, Cəlilim.

Ağlayaram ağlar kimi,
Çağlayaram çağlar kimi.
Xəzan vurmuş bağlar kimi,

Solan Cəlilim, Cəlilim.
Gülabının ömrü talan,
Yurd-yuvamız oldu viran.
Vətən üçün şəhid olan
Olan Cəlilim, Cəlilim.

***20.11.1993***

## DÜNYA

Namərdlərin namərdisən,
Dünya, səni qarğayıram.
Özün boyda dərd çağısan,
Dünya, səni qarğayıram.

Nədi bu xalqın günahı?
Ərşə bülənd olub ahı.
Yoxdurmu daha pənahı?
Dünya, səni qarğayıram.

Ağlayıram için-için,
Qəm libasım biçim-biçim.
Gülə bilməyirəm neyçün?
Dünya, səni qarğayıram.

Sağım şəhid, solum şəhid,
Yerlər, göylər buna şahid.
Cinsən, şeytansan, ya ifrit?
Dünya, səni qarğayıram.

Gülabını dərd alarmış,
Bu qədər sitəm olarmış?!
Bundan betəri də varmış?
Dünya, səni qarğayıram.

***30.03.1994***

## DÖZMÜRƏM

Yaxşının yaman adına,
Dözmürəm, Allah, dözmürəm.
Namərd fitnə-fəsadına
Dözmürəm, Allah, dözmürəm.

Daş yağsın yağı başına,
Zəhər tökülsün aşına.
Körpələrin göz yaşına,
Dözmürəm, Allah, dözmürəm.

Nə ar bilirlər, nə ayıb,
Ürəklər sanki daşlayıb.
Borçalıdan köç başlayıb,
Dözmürəm, Allah, dözmürəm.

Niyə ürəyim sızlasın,
Didələrim qan ağlasın.
Gülabıya rəhmin gəlsin,
Dözmürəm, Allah, dözmürəm.

***24.04.1994***

## YARALANDIM, YARALANDIM

Nadanın nadan sözündən,
Yaralandım, yaralandım.
Naşı sənətkar sazından,
Paralandım, paralandım.

Az ömrümdə nələr çəkdim,
Hədər oldu, hədər çəkdim.
Dost bağında bostan əkdim,
Uralandım, uralandım.

Düşmənimi dostum sandım,
Gecə-gündüz adın andım.
Gülabıyam, yandım-yandım,
Aralandım, aralandım.

***16.06.1994***

# SAZIM, ALLAHIM

Məni divanə eyləyir,
Sazım, Allahım! Allahım!
Dərdimi elə söyləyir
Sazım, Allahım! Allahım!

Əhli-ürfanla əyləşir,
Dərdi olanla dərdləşir,
Sirri olanla sirləşir,
Sazım, Allahım! Allahım!

Millət deyəndə ağlayır.
Torpaq deyəndə dağlayır,
Vətən deyəndə çağlayır,
Sazım, Allahım! Allahım!

Bəzən məlal ilə dolur,
Bəzən xəyallara dalır,
Bəzən Gülabını çalır,
Sazım, Allahım! Allahım!

***28.06.1994***

# AYRILMARAM

Dağlar oynasa yerindən,
Vətən, səndən ayrılmaram.
Dünya qopsa məhvərindən,
Vətən, səndən ayrılmaram.

Can deyənə can deyərəm,
Nan deyənə nan deyərəm,
Qan deyənə qan deyərəm,
Vətən, səndən ayrılmaram.

Sınmaram mən əyilsəm də,
Polad kimi döyülsəm də,
Gülabıyam, gər ölsəm də,
Vətən, səndən ayrılmaram.

***26.07.1994***

## SƏNIN ACIĞINA

Sənsiz səni sevəcəyəm,
Elə sənin acığına.
Sənsiz sənin olacağam,
Elə sənin acığına.

Bağçanızda gül olacam,
Gül üstə bülbül olacam.
Bəm üstündə zil olacam,
Elə sənin acığına.

Üzüyündə qaş olacam,
Gözündəki yaş olacam.
Yolun üstə daş olacam,
Elə sənin acığına.

Mən özüm elçin olacam,
Atan-anandan alacam.
Eşqin sultanı olacam,
Elə sənin acığına.

Dəm-dəzgahlı toy olacaq,
Aşıqlar meydan alacaq.
Gülabı da bəy olacaq,
Elə sənin acığına.

***05.09.1994***

## QURBAN OLUM

Dillənsən, ey qönçə dəhan,
Dillərinə qurban olum.
Ruhi zəban, mahi təban,
Tellərinə qurban olum.

Ey can alan, ləbləri qan,
Qaşı kaman, püstə dəhan,
Gül zənəxdan, gülü reyhan,
Güllərinə qurban olum.

Dürrü cahan, şövkəti şan,
Eşqi nalan, sevgili can,
Xalları xan, qəlbi sultan,
Xallarına qurban olum.

İsmi pünhan, dərdə salan,
Gülabını eşit bir an.
Öz əlinlə eylə dərman,
Əllərinə qurban olum.

***18.12.1994***

## SUS BÜLBÜLÜM

Qara bağım qara bağlar,
Sus, bülbülüm, sus, oxuma.
Didərginim yanar ağlar,
Sus, bülbülüm, sus, oxuma.

Ruzigara bax Laçında,
Şuşa dərdi Çin-Maçında.
Xarı bülbül qan içində,
Sus, bülbülüm, sus, oxuma.

Qarabağdakı qara bax,
Gül köksündəki xara bax.
Gülabı, qəlbin yara bax,
Sus, bülbülüm, sus, oxuma.

***20.12.1994***

# QARDAŞ

*Rusiyaya iş dalınca gedən qardaşım Əşrəfə*

Qürbət eldə qalan qardaş,
Heç halını soran varmı?
Qəriblikdə damla-damla
Göz yaşını silən varmı?

Qəriblik yamandı, qardaş,
Qovuşmaq gümandı, qardaş,
Ağlama, amandı, qardaş,
Bundan betər zaman varmı?

Lətif[1] köçdü, tək qalmışam,
Hüseynsiz saralmışam.
Bulud kimi qaralmışam,
Səndən başqa qalan varmı?

Nə bilirsən, nə çəkirəm,
Kotan qoşub dərd əkirəm.
Gecələr qan-yaş tökürəm,
Bir könlümü alan varmı?

Gülabının tək qardaşı,
Qurumur gözümün yaşı.
Zəhər oldu yağlı aşı,
Səndən özgə bilən varmı?

***24.05.2003***

[1] Lətif, Hüseyn – Gülabının özündən böyük qardaşlarıdır.

# QOŞMALAR

# ÖMRÜM QOCALIR

Cavanlıq quş kimi uçur əlimdən
Qocalır neyləyim, ömrüm qocalır.
Həyat bağçasında güllərim solur,
Qocalır neyləyim, ömrüm qocalır.

Mənim əqidəmdi olum, ya ölüm,
Məsləkim,amalım, müqəddəs yolum,
Sənət meydanında titrəyir qolum,
Qocalır neyləyim, ömrüm qocalır.

Saz-söz meydanında ustadlar gördüm,
Ağır toylar gördüm, düyünlər gördüm.
Başımda oynanan oyunlar gördüm,
Qocalır neyləyim, ömrüm qocalır.

Gülabı, həyatdan nə həzz almısan ?!
Nə tez açılıbsan,nə tez solmusan?!
İndi qocalıqdan nə söz salmısan,
Qocalır neyləyim,ömrüm qocalır.

***15.09.1993***

## GƏL

Cavanlığım gedir, şuxluğum itir,
Ay mənim qədrimi bilməyənim, gəl!
Məni bu yaşında vüsala yetir,
Ay mənim gözləri görməyənim, gəl!

Məhəbbət gülşəni solur, ağlaram,
Əğyarın dediyi olur, ağlaram.
Həsrətdən gözlərim dolur, ağlaram,
Ay mənim gözümü silməyənim, gəl!

Bu yolda canımı üzdüm, bilmədin,
Yoruldum bilmədin, bezdim bilmədin.
Gülabıyam ,necə dözdüm bilmədin,
Ay mənim könlümü almayanım, gəl!

***22.12.1995***

## TELLİ SAZIM

Başımda çox hava, çox havacat var,
Dillən, telli sazım, din, telli sazım.
Ürəyimdə hələ çox atəşim var,
Alış, telli sazım, yan, telli sazım.

Bir payız axşamı dolur ürəyim,
Yaman yaralanır, solur ürəyim.
Sızıldayır,şan-şan olur ürəyim,
Canım, telli sazım, can, telli sazım.

Yarəb, bu ah nədi, bu nalə nədi!?
Gülabı dəlidi, ya divanədi?!
Ustadlar ustadı Xındı Məmmədi,
Axtar, telli sazım, an, telli sazım.

***19.10.1993***

## GECƏLƏR

Bir hicran əlindən sızlayır könlüm,
Alışır gecələr, yanır gecələr.
Uğursuz eşqimi, məhəbbətimi,
Anır xəyallarım, anır gecələr.

Bəhanə gətirib gah dalaşardıq,
Bəzən küsüşərdik,həm barışardıq.
Gizli-gizli yanıb hey alışardıq,
İndi xatirələr yaxır gecələr.

Eşqi hərrac kimi talan gözəlim,
Əhdi sözü kimi yalan gözəlim,
Gülabını dərdə salan gözəlim,
Göz yaşım qəlbimə axır gecələr.

***19.10.1993***

## BELƏ DOST DA VAR

Müxənnət yoldaşdan, qeyrətsiz "dostdan",
Nələr çəkirəm mən, nələr, ilahi!
Məsləksiz, amalsız, şərəfsiz zatdan
Nələr çəkirəm mən, nələr, ilahi!

Sürməli-sürməli sağlıqlar deyir,
Üzə tərif edir, dalda da söyür.
Gündə bir don geyir, bir libas geyir.
Nələr çəkirəm mən, nələr, ilahi!

Gülabı, dünyanın işi belədi,
Biri xan oğludu, biri gədədi.
Vallah insanlığa bunlar zədədi,
Nələr çəkirəm mən, nələr, ilahi!

***26.10.1993***

# MÜBARƏK OLSUN

Allahı çağırıb girrəm meydana,
Bu gözəl toyumuz mübarək olsun!
Sidqimi bağlaram Şahi-mərdana,
Bu gözəl toyumuz mübarək olsun!

Arif nərə çəkə gələ məclisə,
Aləm heyran ola o gözəl səsə.
Əlövsət, İntiqam düşələr bəhsə,
Bu gözəl toyumuz mübarək olsun!

İnqilab, "segah"dan "müxalif"ə keç,
Muğamat bulaqdı, sən gözündən iç.
Yaxşı sənətkarı yamanından seç,
Bu gözəl toyumuz mübarək olsun!

Hidayət, qarmonu götür, al ələ,
Bəlkə sınıq könlüm bir cuşa gələ.
Düşmənlər bağrına salaq vəlvələ,
Bu gözəl toyumuz mübarək olsun!

Ural, nə durmusan bir "Sarıtel" çal,
Yandır, yana-yana könülləri al.
Süzülsün barmaqdan abı-kövsər, bal,
Bu gözəl toyumuz mübarək olsun!

Sazlı-sözlü sənətkarsan, Gülabı,
Al sazını, al sinənə, Gülabı.
Yetiş sən də muradına, Gülabı,
Bu gözəl toyumuz mübarək olsun!

***09.11.1993***

# NEYLƏYİM

Ala gözlüm, sən yadıma düşəndə,
Ömrüm xəzan kimi soldu, neyləyim.
Dərd dərdə söykənib başdan aşanda,
Hicran rübabını çaldı, neyləyim.

Güldün, ürəyimdə bir yaz açıldı,
Ağladın, könlümə bir qəm saçıldı.
Ömrüm bir zəmidi, zəmim biçildi,
Könül mülkü viran qaldı, neyləyim.

Dünyadan xan kimi xan atam getdi,
Mənə can-can deyən, can anam getdi.
Getdi, sonalar tək bir sonam getdi,
Gedən getdi, olan oldu, neyləyim.

Gözəllər vəfasız olarmış, Allah!
Vəfasız, insafsız  olarmış,Allah!
Gülabı da arsız olarmış ,Allah!
Neyləyim ki,dərdi boldu,neyləyim!

***10.11.1993***

# ARZU İLƏ İMKANIN MÜBAHİSƏSİ

Bir gün arzularım dindi, nə dindi,
İmkanım söylədi: “farağat otur.”
Arzum üzə durdu,durdu, nə durdu,
İmkanım söylədi: “farağat otur.”

Dedi: “Bahar çağı bülbül istərəm,
Bülbül həsrətində bir gül istərəm.
Gül içində saçı sünbül istərəm”
İmkanım söylədi: “ farağat otur.”

Dedi: “İstərəm ki, milyonum olsun.
Könlümün məhbubu, mehmanım olsun.
Axşam, sabah ağır yığnağım olsun”,
İmkanım söylədi: “farağat otur.”

Dedi: “Yağım gəlsin Azərbaycandan,
Düyüm, çayım gəlsin şəhri-İrandan.
Aşıqlarım gəlsin Böyük Turandan.”
İmkanım söylədi: “farağat otur.”

Dedi: “Gülabının sazı olaydı.
Söz-söhbəti, xoş avazı olaydı.
Bir də sevgilimin nazı olaydı”.
İmkanım söylədi: “de rahat otur.”

***30.11.1993***

## SƏMƏD BƏYİM

*Nikolay qaçağı Qasımlı Səməd ağaya*

Yaman kövrəlibdir Qoca Borçalım
Mürşidim, sultanım, a Səməd bəyim.
Bəs kimi axtarım, bəs kimi anım
Mürşidim, sultanım, a Səməd bəyim.

Alosman elinə talan saldın sən,
Cəlalı kürdünə qılınc çaldın sən.
İran ölkəsindən xərac aldın sən,
Mürşidim, sultanım, a Səməd bəyim.

Hanı İsmayıl bəy, İsgəndər ağa?
Hanı Həsən bəynən Məhəmməd ağa?
Hanı İsrafil bəy, Cahandar ağa?
Mürşidim, sultanım, a Səməd bəyim.

Bir zaman xalqımın dayağı idin,
Qoca Borçalımın mayağı idin.
Sən mənim mürşidim, mənsə müridin,
Mürşidim, sultanım, a Səməd bəyim.

Oyan, dur məzardan qisas çağıdı,
Sinəmi dağlayan düşmən dağıdı.
Gülabının ömrü qəm oylağıdı,
Mürşidim, sultanım, a Səməd bəyim.

***03.12.1993***

# GƏLMƏDİN

Ay üzlü cananım, sevgili yarım,
Gözüm yolda qaldı, niyə gəlmədin?
Axı gözləməkdən üzüldü canım,
Gözüm yolda qaldı,niyə gəlmədin?

Əhdinə vəfasız olarmı insan?
Öz eşqinə ləkə salarmı insan?
Mənimtək saralıb,solarmı insan?
Gözüm yolda qaldı,niyə gəlmədin?

Gülabı, vədədi, zamandı-zaman.
Fələyin yazısı yamandı-yaman.
Bundan sonra sevmək gümandı-güman
Gözüm yolda qaldı, niyə gəlmədin?

***10.12.1993***

## ALLAH

Ürək sızıltısı, ürək ağrısı,
Bəxtimə yazılan yazımı, Allah!
Yandırır sinəmi ağrı-acısı,
Deyə bilməyirəm sözümü, Allah!

Dağlara üz tutub gəzə bilmirəm,
Əl atıb gülünü üzə bilmirəm,
Köç-köç olur ellər, dözə bilmirəm,
Özün ver dözümü, dözümü, Allah!

Dərdlərim dəfn olub yox olmalıdı,
Arzular cücərib boy atmalıdı,
Gülabı dünyadan kam almalıdır,
Almaynan sazımı əlimdən, Allah!

***04.01.1994***

## MƏHƏBBƏT-NİFRƏT

Dünyaya sığışmaz, cahana sığmaz,
Məhəbbətim mənim, nifrətim mənim.
Nə məkana sığmaz, nə kana sığmaz,
Məhəbbətim mənim, nifrətim mənim.

Bəzən pərvazlanıb dövran eyləyir,
Bəzən ürəyimdə tufan eyləyir.
Sazımın səsində cövlan eyləyir,
Məhəbbətim mənim, nifrətim mənim.

Gülabı, dünyaya uymaynan hədər,
Nə qızıldı, nə gümüşdü, nə də zər,
İçimdən sıyrılan qılınca bənzər,
Məhəbbətim mənim, nifrətim mənim.

***20.02.1994***

## AXŞAM OLDU

Gözlədim, gözlərim yollarda qaldı,
Gəlmədin, gözəlim, gün axşam oldu.
Gözlədim, gözümün kökü saraldı,
Gəlmədin, gözəlim, gün axşam oldu.

Bir bax ürəyimdə gör nə haraydı,
Bünövrəsi dərddi, sanki saraydı.
Axır çeşmim yaşı dənizdi, çaydı.
Gəlmədin, gözəlim, gün axşam oldu.

Yadındamı dedin: “gül abıyam mən”,
Onunçün vuruldum Gülabıya mən.
And olsun həmənki Gülabıyam mən.
Gəlmədin, gözəlim, gün axşam oldu.

***30.03.1994***

## İLAHİ SƏSLƏR

İki ilahi səs qulağımdadı,
Anamın laylası, sazın laylası.
İki ilahi söz dodağımdadı,
Anamın laylası, sazın laylası.

İki ilahi səs müjdə yetirdi.
İki ilahi söz müjdəsin verdi.
Ya rəb, bu nə hikmət, bu nə sirdi?
Anamın laylası, sazın laylası.

İki ilahi səs haraylar məni,
İki ilahi söz haraylar məni,
Gülabıyam, hər vaxt haraylar məni,
Anamın laylası, sazın laylası.

***01.04.1994***

## PİR İDİM AXI

Gözlərim sataşdı gözünə sənin,
Ay zalım, əridim, əridim axı.
De nədi günahım, günahım mənim?
Yandım külə döndüm, nur idim axı.

Sevdanı başımdan ata bilmirəm,
Qor dolur yerimə, yata bilmirəm,
Sənin vüsalına çata bilmirəm,
Xəzan vurdu, soldum, gül idim axı.

Gülabıyam, gördüm, canımdan keçdim,
Tək səni bəyəndim, tək səni seçdim.
Gözlərin nuruna bələndim, içdim,
İçib sərxoş oldum, pir idim axı.

***01.04.1994***

## BAŞINA DÖNDÜYÜM

*Osman qardaşıma*

Osman, yenə könlüm səni istədi,
Gözləyirəm, gəl başına döndüyüm.
Könlümün rübabı ayaq üstədi,
Bir az gətir "ləl"başına döndüyüm.

Başımda dolanır neçə şah hava,
Sənsən atam-anam, ruhuma dəva.
Səsini eşidim, qılğınan rəva,
Sözü şəkər-bal başına döndüyüm.

"Kür"oğlusan, Kür üstünün elində,
Türksən, çağlıyırsan türkü dilində,
Gülabını qoyma nadan əlində,
Gir meydana, kal başına döndüyüm.

***04.04.1994***

## SAZIMDAN SORUŞ

Ey məndəki məni bilmək istəyən,
Məni məndən sorma, sazımdan soruş.
Xoşbəxtlik istəyən, gülmək istəyən,
Məni məndən sorma,sazımdan soruş.

Nifrətim olana şir oluram mən,
Könlüm istəyənə pir oluram mən.
Sənət dünyasında sirr oluram mən,
Məni məndən sorma, sazımdan soruş.

Gülabıyam, elin aşığıyam mən,
Haqqın, ədalətin aşiqiyəm mən.
Elə bil dünənin uşağıyam mən,
Məni məndən sorma, sazımdan soruş.

***03.05.1994***

## SAXLA SƏN MƏNİ

Yağı düşmənimlə bacararam mən,
Allah, öz dostumdan saxla sən məni.
Şərəf-şöhrətimlə ucalaram mən,
Allah, öz dostumdan saxla sən məni.

Mən nə bilim ürəyində nə yatır,
Namusu, vicdanı, arını satır.
Bütün el-obanı bir-birnə qatır,
Allah, öz dostumdan saxla sən məni.

Duyammadım amalı nə, fikri nə,
Nələr gəlir, nələr düşür fikrinə.
Gülabını salıb fitnə-felinə,
Allah, öz dostumdan saxla sən məni.

***30.04.1994***

## İŞIQ VER MƏNƏ

Çəkil gözlərimdən, Əhrimən[1], çəkil,
Ey ulu Hürmüzüm[2], işıq ver mənə.
Tökül gözlərimdən, ey zülmət, tökül,
Ey ulu Hürmüzüm, işıq ver mənə.

Ömrüm çiçəkləyir,qəhərdəyəm mən.
Köhlənim yoldadı, yəhərdəyəm mən.
Əlimdə telli saz səfərdəyəm mən,
Ey ulu Hürmüzüm, işıq ver mənə.

Sənət zirvəsinə tikdim gözümü,
Hələ tapmamışam özüm-özümü.
Gülabıyam, deməmişəm sözümü,
Ey ulu Hürmüzüm, işıq ver mənə.

***05.05.1994***

[1] Əhrimən – şər allahı
[2] Hürmüz – xeyir allahı

## AĞLARAM

Ay ellər, obalar, qan ağlar gözüm,
Ruslan kimi mərdi deyib ağlaram.
Mən necə dolanım, mən necə dözüm,
Ruslan kimi mərdi deyib ağlaram.

Dünyadan növcavan bir danəm getdi,
İnci mərcan kimi dürdanəm getdi,
Getdi mərdanətək mərdanəm getdi,
Ruslan kimi mərdi deyib ağlaram.

Gülabı, sızlamaq nədəndi, nədən,
Dünya belə gəlib əzəl binədən.
Nakam gəldi, nakam getdi dünyadan,
Ruslan kimi mərdi deyib ağlaram.

***28.12.1993***

## AMANAT

Vəsiyyət eylədi mənə xan dədəm,
Telli sazım, amanatım, amanat.
Oğul, can üstəyəm, səfərdəyəm mən,
Ahu gözlüm, amanatım, amanat.

Sənət dünyasında bir xanə qurdum,
Cəfasını çəkdim, səfasın sürdüm.
Meydanda nər kimi mərdanə durdum,
Ata yurdum, balalarım, amanat.

Düşmənlərə bac vermədim, bac aldım,
Namusumla, qeyrətimlə ucaldım.
Sənətimlə şöhrət aldım, ad aldım,
Şərəfim, şöhrətim, adım amanat.

Aldanmadım bu dünyanın dadına,
İnanmadım namərdinə, yadına.
Gülabıyam,and içirəm adına,
Amanatım ,amanatdır,amanat.

***10.05.1994***

## ƏHMƏD SADAXLININ 60 İLLİK YUBİLEYİNƏ

Bu gözəl gününə, bu xoş gününə,
Bulud kimi dolub gəlmişəm, ustad.
Sazın naləsinə, sənət eşqinə
Kərəm kimi yanıb gəlmişəm, ustad.

Mənim də öz dünyam, öz aləmim var,
Ustad Xındı Məmməd, xan Əmrahım var.
Sənətdə istəyim, öz məramım var,
Məramımı alıb gəlmişəm, ustad.

Gülabıyam, vallah birdi Saraclı,
Sənin sənətində pirdi Saraclı.
Ay Əhməd Sadaxlı, sirdir Saraclı,
Mən bu sirrə varıb gəlmişəm, ustad.

***25.05.1994***

## AŞIQ ARİF BAŞKEÇİDLİYƏ

Otuz yaş ömrümün bahar çağıdı,
Səni təbrik edir el, Aşıq Arif.
Telli saz əlində düşmən dağıdı,
Çal yansın, tökülsün, çal, Aşıq Arif.

Bilirəm aşıqlıq xoş niyyətindi,
Saza-sözə hörmət məhəbbətindi.
İnsanı tanımaq yaman çətindi,
Dərsini ustaddan al, Aşıq Arif.

Gülabıyam, hal əhlindən halıyam,
Bilirəm, dərdlisən mən yaralıyam.
Bir "Urfanı" oxu, bəlkə, yarıyam,
Sazı şirin, sözü bal, aşıq Arif.

***12.06.1994***

## OĞUL GƏRƏK

Eşidin səsimi, ay elim, obam,
Vətənə, millətə oğul gərəkdi.
Yaman at oynadır yağılar, babam,
Vətənə, millətə oğul gərəkdi.

Düşmən hiyləsindən ötüşmək üçün,
Ülvi arzulara yetişmək üçün,
Min illik yaralar bitişmək üçün,
Vətənə, millətə oğul gərəkdi.

Hardadır düşmənə yaman oğullar.
Qılıncından qanlar daman oğullar,
Gülabıyam, qalxın, aman oğullar,
Vətənə, millətə oğul gərəkdi.

***27.06.1994***

# VALLAH

Üzümü dağlara tuturam, qardaş,
Vətənin ətrini duyuram, vallah!
Həsrətdən bülbültək ötürəm, qardaş,
Vətənin ətrini duyuram, vallah!

Niyə dağlarımız yağıya qaldı?
Niyə bağlarımız dığıya qaldı?
Niyə taleyimiz ağıya qaldı?
Vətənin ətrini duyuram, vallah!

Gülabı dərd çəkən elin övladı,
"Qalx ayağa" - deyən dilin qurbanı,
Misri qılınc tutan əlin qurbanı,
Vətənin ətrini duyuram, vallah!

***27.06.1994***

# DƏHŞƏT

Bir uğursuz eşqə düçar olanda,
Əğyarın ədası dəhşətdir, dəhşət.
Viranə bağçada, bağbansız bağda,
Bülbülün sədası dəhşətdi, dəhşət.

Uzaqda dayanıb məlul duranda,
Qərib durna kimi boynun buranda,
Hər məni görəndə, rəngi solanda,
Gözlərin xətası dəhşətdi, dəhşət.

Gülabı, sevgilər hər zaman ola,
Hörmətin, izzətin bir ümman ola.
Düşmənin olanda mərd düşmən ola,
Düşmənin gədəsi dəhşətdi, dəhşət.

***16.09.1994***

# ÖLÜMDƏN QORXMURAM

Ölümdən qorxmuram, qorxuram ki, mən,
Hələ şah havamı çalmamış öləm.
Ölümdən qorxmuram ,qorxuram ki, mən,
Həyatdan kamımı almamış öləm.

Qorxuram ki, günüm keçə sel kimi,
Ömrüm sına bir köhnəlmiş tel kimi.
Ötüb gedəm tufan kimi, yel kimi,
Şirin xəyallara dalmamış öləm.

Gülabı, sidqini bağla Allaha,
Küfr eyləyib batmaginən günaha.
Sən arzuyla,ümidlə bax sabaha,
Niyə qocalığa çatmamış öləm.

***18.09.1994***

## YAHU DƏRVİŞƏM

Ayağımda çarıq, əlimdə əsa,
Yahu, bir sərgərdan dərvişəm, dərviş.
Vətənsiz qəribəm, tərki-dünyayam,
Yahu, bir sərgərdan dərvişəm, dərviş.

Yuxumda bir qoca nəsihət dedi,
Nəsihət söylədi, mərifət dedi.
Mərifət, təriqət, həqiqət dedi,
Yahu, bir sərgərdan dərvişəm, dərviş.

Gülabı can qoyub sənin yolunda,
Dərsimi almışam ustad yanında,
Sənətin hüdudsuz səhralarında,
Yahu, bir sərgərdan dərvişəm, dərviş.

***20.09.1994***

## YAZIĞIM GƏLİR

Dilbilməzə, yarımçığa, nadana,
Dediyim sözümə yazığım gəlir.
Anlamaza mən çəkdiyim zəhmətin,
Çoxuna, azına yazığım gəlir.

Ömrümün növrəstə bahar çağında,
Şirin arzuların xoş sorağında,
Vəfasız dilbərin gülşən bağında,
Qoyduğum izimə yazığım gəlir.

Ömrüm boyu müxənnətnən öc oldum,
Şərəfimlə, zəhmətimlə ucaldım.
Gülabıyam, vaxt-vədəsiz qocaldım,
Özümün özümə yazığım gəlir.

***07.10.1994***

## ANA

Məzarın üstündə alışdım, yandım,
Ciyərim köz oldu, köz oldu, ana!
Sənli günlərimi mən harayladım,
Ah-naləm saz oldu, saz oldu, ana!

Dərdinə bir əlac görə bilmədim,
Sənsiz bu dünyada gülə bilmədim.
Sənə öz borcumu verə bilmədim,
Zəhmətim az oldu, az oldu, ana!

Bilməm bu nə zülüm, nə müsibətdi,
Atasız-anasız həyat zülmətdi.
Gülabıyam, günüm sizinlə getdi,
Yaram göz-göz oldu, göz oldu, ana!

***12.11.1994***

## YAŞ O YAŞ DEYİL

İncimə, gözəlim, incimə məndən,
İllər o il deyil, yaş o yaş deyil.
Saç ağardı, diş töküldü, neyləyim,
Tellər o tel deyil, qaş o qaş deyil.

O görüş yerinə gələ bilmirəm,
Kövrək göz yaşını silə bilmirəm.
Dil töküb könlünü ala bilmirəm,
Dillər o dil deyil, diş o diş deyil.

Deyirlər dərdini dərd çəkən bilər,
Gülabı, dünyada azdırmı məgər?
Gündə yüz yol başa döysən də əgər,
Əllər o əl deyil, baş o baş deyil.

***15.05.1995***

## GÜNAHKAR

Qoşa gedəmmədik ömür yolunda,
Mən də günahkaram, sən də günahkar.
Ulu eşqin, məhəbbətin yanında,
Mən də günahkaram, sən də günahkar.

Əhdinə vəfalı ola bilmədik,
Könül rübabını çala bilmədik.
Bir ömürü verdik yola, bilmədik,
Mən də günahkaram, sən də günahkar.

Məgər biz olmadıq əhdini danan,
Mən yanıram, mənim kimi sən də yan.
Mən aşıq Gülabı, sən ismi pünhan,
Mən də günahkaram, sən də günahkar.

***03.06.1995***

## MƏN OLMAYANDA

Ey gözümün nuru, könül həmdəmim,
Dünya yaşayacaq mən olmayanda.
Bulaqlar axacaq, çaylar daşacaq,
Günəş nur saçacaq mən olmayanda.

Bu sirli soraqlı yalan dünyada,
Əvvəl verib sonra alan dünyada,
Süleymandan, Nuhdan qalan dünyada,
Dövranlar keçəcək mən olmayanda.

Gülabısız gözəl toylar olacaq,
Aşıqlar saz çalıb meydan alacaq.
Gözlərin dolacaq, hey axtaracaq,
Xəyalın gəzəcək mən olmayanda.

***03.07.1995***

## ŞAİR OSMANA

Şair Osman, dəvətimə gəlmədin,
Qədəm qoyub o diyara gəlimmi?
Şahmar aramızda olubdu əğyar,
Bir dağ çəkib o əğyara gəlimmi?

Bir çay idim çalxalandım, bulandım,
Sevdalanıb bu dünyanı dolandım.
Eşqə düşdüm, eşqin oduna yandım,
Məcnun olub o səhrayə gəlimmi?

Dinim islam dini, türk-ər oğluyam,
Sinə dağlı Borçalının oğluyam.
Gülabıyam, Xındı Məmməd oğluyam,
Üz tutuban sən hüşyara gəlimmi?

***26.07.1995***

## NƏDƏNDİ

Baxış müəllim, yüz-yüz süzüb vuranda,
İstəkanlar şaqqıldamır nədəndi?
Zəmanə bəd gəldi, dövran bəd gəldi,
Çil kəkliklər qaqqıldamır nədəndi?

Dağ döşündə kəklikotu yolanda,
Bir alagözlünün könlün alanda,
Göy çəmən üstündə məclis quranda,
Samovarın pıqqıldamır nədəndi?

Həsən müəllim Füzulidən deyəndə,
Qara Tofiq anektod söyləyəndə,
Əhməd də gül vurub tərifləyəndə,
Ürəyimiz tıqqıldamır nədəndi?

Bu boranda, bu çovğunda, talanda,
Gülabı hay salıb, haray salanda,
Düşmən meydan alıb at oynadanda
Çaxmaqlarımız çaqqıldamır nədəndi?

***20.05.1995***

## MƏN

Eşidin səsimi, eşidin ellər,
Vətən torpağının gur səsiyəm mən.
Kamanda "Dilkeşəm", tarda "Segaham",
Sazda babaların nəfəsiyəm mən.

Şuşa zindanında solan Sonanın,
Düşmən gülləsindən köksü yananın,
Xocalıda əsir düşən ananın,
Körpə balaların naləsiyəm mən.

Dayan! Ey qaniçən, əl saxla bir an,
Nədir bu tökdüyün günahsız al-qan?!
Gülabıyam, əgər ölsəm də, inan,
Sahib-əl zaman tək gələsiyəm mən.

***03.08.1995***

## QISQANIRAM MƏN

Günəş gözlərindən öpmək istəyir,
Səni o günəşə qısqanıram mən.
Külək saçlarını səpmək istəyir,
Səni o küləyə qısqanıram mən.

O süzgün baxışa,gözə bax, Allah!
O mərmər sinəyə,üzə bax, Allah!
Dəhanından çıxan sözə bax, Allah!
Səni o sözlərə qısqanıram mən.

Axar sular kimi axma, amandı,
Canımı odlara yaxma, amandı,
Baxma, Gülabıya, baxma, amandı,
Səni Gülabıya qısqanıram mən.

***11.08.1995***

## GƏL

Ya Rəsuli-əkrəm, Ya sirri-xuda,
Ağ dəvə üstündə xilaskarım, gəl!
Bütün məzlumların dadına yetən,
Möhtacam mən sənə, necə danım, gəl!
Sənə fəda olsun mənim canım, gəl!

Xeybər qalasını başından atan,
Özünü qul edib Bərbərdə satan,
Tifilkən ağ devin bəndini çatan,
Əlində zülfüqar, pəhləvanım, gəl!
Sənə fəda olsun mənim canım,gəl!

Gülabıyam, dilimdədi bir nida,
Gözümdə qanlı yaş, Seyyid-Şühəda,
Dodağı çatlayan o Kərbəlada
Şəhidlik yolunda şöhrət-şanım, gəl!
Sənə fəda olsun mənim canım, gəl!

***22.08.1995***

## DÜŞƏRSƏN

Yarı gözəl, atı yorğa olannan
Yoldaş olma bil ki, dara düşərsən.
Mərd özündən görər, namərd özgədən,
Namərdin şərindən nara düşərsən.

Qabağa keçərsən, deyərlər: “bicdi”,
Arxada qalarsan, deyərlər: “gicdi”,
Nəfsi tox olarsan, deyərlər: “acdı”,
Cahilin sözündən zara düşərsən.

Yer bərk olsa, öküz öküzdən görər,
Küləyə tüpürsən, saqqala dəyər.
Gülabı, kəlbi[1] var özünə hürər,
Haşa, haşa səndən, şərə düşərsən.

***26.08.1995***

[1] Kəlbi – itt

## XOŞBƏXT GÜNLƏRİM

Dünya kimi sən də vəfasız oldun,
Ay xoşbəxt günlərim, xoşbəxt günlərim.
Vədəsiz göyərdin,vədəsiz soldun,
Ay xoşbəxt günlərim, xoşbəxt günlərim.

Cavankən təzə-tər üz iyləyərdim,
Qızılgül ətritək söz söyləyərdim.
Bəzən də cərgədən qız əyləyərdim,
Ay xoşbəxt günlərim, xoşbəxt günlərim.

İndi yaşım ötmüş fikirlər almış,
Ömrün bahar çağı çoxdan sozalmış.
Bəlkə Gülabının özü xəyalmış,
Ay xoşbəxt günlərim, xoşbəxt günlərim.

***01.09.1995***

## İNCİDİM

Ürəyim neyləsin bir tikə ətdi,
Dözmədi hər sözə, dəydi, incidim.
Bu necə zülmdü, necə zillətdi?
Zəmanə qəddimi əydi, incidim.

Haqqa düşmən haqsızlığa həyanlar,
Elin arasına fitnə yayanlar,
Sənəti söyənlər, şeiri söyənlər
Yersiz öz özünü öydü, incidim.

Gülabı, düz yola, izə yatmayan,
Gövhər bazarında inci satmayan,
Arvad-uşağına gücü çatmayan
Özünü ağsaqqal saydı, incidim.

***22.12.1995***

# MƏNİ

*Qocayev Nəbinin xatirəsinə onun dilindən*

Fələk belə yazdı mənim yazımı.
Ana, ağrın alım, az ağla məni.
Bundan sonra kim çəkəcək nazını?
Dərdini kağıza yaz, ağla məni.

Ömür yoldaşımı, könül yarımı,
Sənə tapşırıram balalarımı.
Əzəldən duymuşdum öz acalımı,
Zimistana döndü yaz, ağla məni.

Mən bilirdim bu dünyanın zatını,
Çəkdirdi qarşıma əcəl atını.
Nəbiyəm, yüklədim qəm baratını,
Ağlasın üstümdə saz, ağla məni.

***20.11.1996***

## TƏHLƏLİ QARDAŞIM İSMAYILA

Ağır bir mahalın ağır oğlusan,
Mənim bu ərzimi al, ay İsmayıl.
Nur süzülür söhbətindən, sözündən,
Bal axır dilindən, bal, ay İsmayıl.

Başı buludlardan nəm alan dağsan,
Mərdsən, mərd oğlusan, damağı çağsan.
Ləli-cəvahirsən, tükənməz bağsan,
Yoxdu əlin üstə əl, ay İsmayıl.

İlahi saxlasın səni nəzərdən,
Nəfəsi iblisdən, ayağı şərdən.
Gülabıyam, əgər dönərsəm səndən,
Aparasın qoy məni sel, ay İsmayıl.

***05.02.1997***

## DUR GEDƏK

Yenə Borçalımın toy büsatıdı,
Qurban olum, telli sazım, dur gedək.
Vətənimin xoş günü, xoş çağıdı.
Dur ayağa, xoş avazım, dur gedək.
Qurban olum, telli sazım, dur gedək.

Aləmə bax, gör nə günümdü mənim,
Çiçəklənib çölüm, düzüm, çəmənim.
Nazlanır, naz edir nazlı sənəmim,
Açılıbdı güllü yazım, dur gedək,
Qurban olum, telli sazım, dur gedək.

Bilməm Borçalının neçədi yaşı,
Canımdan əzizdi torpağı, daşı.
Aşıq Gülabının könül sirdaşı,
Şirin dilli, sərvinazım, dur gedək,
Qurban olum, telli sazım, dur gedək.

***22.03.1997***

## USTADDI Kİ USTADDI

Mərddən mərd törəyər qəhrəman olar,
Mərdin oğlu comərddi ki, comərddi.
Bayquştək ulayar xarabalarda,
Namərd oğlu namərdir ki, namərddi.

Görməmiş pul görüb yaman tələsir,
Dövran bu dövrandı, əsr bu əsr.
Yoxsulun nəyi var – bir quru həsir,
Bərbad oğlu bərbaddı ki, bərbaddı.

Gülabı dərsini ustaddan aldı,
Ömründə nə qədər havalar çaldı!
Ustad görməyənin işi xam qaldı.
Ustad oğlu ustaddı ki, ustaddı.

***15.01.1998***

## GEDƏKMİ

Yolçu müəllim, bir üz tutaq dağlara,
Buzlu bulaqlara qonaq gedəkmi?
Düz on ildi, gedəmmirəm həsrətəm,
Sinəm olub varaq-varaq gedəkmi?

Qayalarda xına qoyaq əllərə,
Dəstə tutub sirdaş olaq güllərə.
Yastı qardan haray salaq ellərə,
Həmdəm olsun bizə yaraq, gedəkmi?

Gedək görək, örüş yeri dururmu?
Boz canavar çobanları yorurmu?
Dərələri tütək səsi alırmı?
Gülabını yolda yoraq, gedəkmi?

***20.07.2001***

## AYXAN BALAM

Sən mənim ömrümə bir dayaq oldun,
Balamın balası, ay Ayxan balam.
Günəştək saçıldın, gültək açıldın,
Balamın balası, ay Ayxan balam.

Yerimsən, göyümsən, dinim imanım,
Sazımsan, sözümsən, canımda canım.
O dünyam, bu dünyam, yeddi cahanım,
Balamın balası, ay Ayxan balam.

Əslisən, nəslisən Xındı Məmmədin,
Çalış baban kimi olsun hörmətin.
Böyü, ay ər balam, igid ol, mətin,
Balamın balası, ay Ayxan balam.

***10.09.2001***

## NƏYDİ MƏNİM GÜNAHIM

Bu qərib dünyada bağrım qan olur,
Aman fələk, nəydi mənim günahım?
Əlim çatmır vətənimə, elimə,
Aman fələk, nəydi mənim günahım?

Bir çay idim, çalxalandım, bulandım,
Sevdalandım, bu dünyanı dolandım.
Eşqə düşdüm, eşqin oduna yandım,
Aman fələk, nəydi mənim günahım?

Bu qürbət diyarda yananım hanı?
Arxamca gözləri dolanım hanı?
Gülabıyam, dərdə qalanım hanı?
Aman fələk, nəydi mənim günahım?

***15.12.2004***

## EHTİYACIM VAR

Eşqdən sədəqə olmaz, gözəlim,
Mənim məhəbbətə ehtiyacım var.
Şəhvətə qul olmaq nadan işidir,
Mənim məhəbbətə ehtiyacım var.

Məhəbbət uludu, uludu, gözəl,
Məhəbbət insanı duruldu, gözəl,
Məhəbbət öldürüb dirildir, gözəl,
Mənim məhəbbətə ehtiyacım var.

Ağır mahalına,elinə qurban,
Mənim şirin dillim, dilinə qurban.
Gülabıyam, gülüm, gülünə qurban,
Mənim məhəbbətə ehtiyacım var.

# İNDİ

*Sankt-Peterburqda yaşayan əziz qardaşım Əşrəfə*

Məndən uzaqdasan, əziz qardaşım,
Heç bilmirəm, necə dözürəm indi?
Həsrətdən qovrulub yanıram yaman,
Dəli divanətək gəzirəm indi.

Baxginən  başıma gör nələr gəlir,
Bağçamda sünbülüm, bir gülüm solur.
Yata bilməyirəm, gözlərim dolur,
Dərdli günlərimi çözürəm indi.

Gülabıyam, göz yaşımı silirəm,
Ömrüm başa çatır, yəqin bilirəm.
Gecə səhərədək yuxu görürəm,
Səhərlər yuxumu yozuram indi.

## VALLAH!

Elin köməyini, elin gücünü,
Öz arxa dayağım bilmişəm, vallah!
Hər dəfə bir fəqir sevindirəndə
Doyunca sevinib gülmüşəm, vallah!

Çiçəyin rəngini, gülün rəngini,
Həyatın rəngini, ömrün rəngini,
Kədərin rəngini, qəmin rəngini,
Anamın gözündə görmüşəm, vallah!

Yaşamışam bu şöhrətdə, bu şanda,
Gülabıyam, dolanmışam cahanda.
Hər dəfə atamı xatırlayanda,
Töküb göz yaşımı silmişəm, vallah!

## QARDAŞ ÖLÜMÜ

Yaman kövrəlmişəm yaman, ay ellər.
Nə yaman olurmuş qardaş ölümü.
Dərd aldı sinəmi, yandırdı yaman,
Nə yaman olurmuş qardaş ölümü.

Sazımı əlimə ala bilmirəm,
Doyunca danışıb gülə bilmirəm.
Bu necə zillətdi, bilə bilmirəm,
Nə yaman olurmuş qardaş ölümü.

Dünya yalan dünya, yalan oldu vay!
Ömrümün bağçası viran oldu vay!
Gülabının könlü talan oldu vay!
Nə yaman olurmuş qardaş ölümü.

# AY BUTA

Fələk xatirimə yaman dəyibdi,
Gəl mənim qəlbimə  dəymə, ay Buta.
Allah da bilir ki, mən günahsızam,
Günahkar yerinə qoyma, ay Buta.

Zəmanə bəd gəlib neynim güldürmür,
Ürəyimə kədər çöküb sildirmir.
Ölüm istəyirəm, Allah öldürmür,
Yadların sözünə uyma, ay Buta.

Öldü Xındı Məmməd, öldü Saraşdı,
Xan Əmrah, Kamandar dünyadan köşdü.
Qoy ölsün Gülabı, qal gözüyaşdı,
Amandı sazıma qıyma, ay But.

## SƏRASƏR EYLƏR

Qohumun namərdi, dostun nadanı,
İnsanı yandırar, tez əsər eylər.
Vətəni,torpağı satıb gedəni,
Qürbət el çürüdər, sərbəsər eylər.

Nə gözəl görünür aynadan dünya,
Gözəllər gözəli, ay nadan dünya.
İnsanı yerindən oynadan dünya,
Nə anlayar sözü, nə əsər eylər.

Nəzər eylə Gülabını tanı, yar,
Aşiq-məşuq bir-birini tanıyar.
Darda qoymaz sevənləri tanrı, yar,
Rəhm edib köməyin sərasər eylər.

***15.06.1994***

## SAZIM

*(müxəmməs)*

Mən səninlə həmdəm oldum,
Yetmiş beş havalı sazım.
On bir simin avazından
Dərdimə dəvalı sazım.
Neçə xalında, gülündə
Aşiqtək nəvalı sazım.
Həm bəmində, həm zilində
Aranlı-yaylalı sazım.
Bəzən bir ustad əlində
Koroğlu nərəli sazım.

Yenə yaman xəyallısan,
De yadına, kimlər düşür?
Neçə-neçə köç eyləyən,
Həyatdan nakamlar düşür.
Sənətkarlara, sənətə
Zalımlar, yamanlar düşür.
Bəlkə də cövlan etdiyin
Dövranlar, zamanlar düşür.
Bilirəm cəng meydanında
Tufansan, davalı sazım.

Gülabıyam, ömrüm boyu,
Çəkərəm sənin nazını.
Sənə müxənnət olanın,
Qışa döndərrəm yazını.
Həyatdan artıq sevirəm,
Səsini, xoş avazını,
Aşıqlar səndə tapıb
Baharını, Gülyazını,
Xındı Məmməddən yadigar
Qüdrətdən qalalı sazım.

***21.12.1995***

# AŞIQ GÜLABIYA HƏSR EDİLMİŞ ŞEİRLƏR

## ƏŞRƏF XINDI
## MƏMMƏD OĞLU

# XANDI GÜLABI

Əziz Yaradana min şükür olsun,
Könüllər pirinə döndü Gülabı!
Deməsinlər yer üzündə yurd salıb,
Sənətə göylərdən endi Gülabı!

Çalğıda mahirdi,sazda yenilməz,
Sirdi, möcüzədi çəkiyə gəlməz.
Od olub yanmasa, o çala bilməz,
Babamız Əmrahla təndi Gülabı.

Özü mehribandı,üzü gülərdi,
Sənət dünyasında ər oğlu ərdi.
Əşrəfin gözündə ocaxdı, pirdi,
Paşadı, sultandı, xandı Gülabı!

***13.08.2011***

## AY QAĞA!

*Qardaşım Gülabıya*

Ustad bir ozanın ustad oğlusan,
Telli sazın allahısan, ay qağa!
Haxdan gələn bir sənətin Hüseyni,
Kamandarı, Əmrahısan, ay qağa!

Ürəyində dağlar qədər sirr yatır,
Tellər ilə qovuşmağa can atır.
O sirləri o barmaqlar oyadır,
Havaların fəryadısan, ay qağa!

Bu dağların zirvəsisən, başısan,
Sənə həsrət gözlərimin yaşısan.
Sən, Əşrəfin müqəddəs qardaşısan,
Xındı Məmməd övladısan, ay qağa!

***07.02.2006***
***Sankt-Peterburq***

## GÜLABI

Sənət aləmində, saz dünyasında,
Sirri açılmayan sirdi Gülabı.
Sazıyla dünyaya meydan oxuyan,
Ozandı, ocaqdı, pirdi Gülabı.

Şəlalədi, dağ selidi, tufandı,
Bir dəryadı təlatümdü, ümmandı.
Sızıldayan teldi, bir yana şamdı,
Atəşdi, alovdu, oddu Gülabı.

Bir xalqa bağlıdı el sənətkarı,
Bir xalqın incisi, dövləti varı,
Bir ustad aşığın yurd yadigarı,
Ünvanı Borçalı, adı Gülabı.

Düzlüyü tərsinə yozub yazanlar,
Bilmirmi müqəddəs haqdı ozanlar.
Olsa da elindən, yurdundan kənar,
Sinələr altında yurddu Gülabı.

Türkün əyilməyən şah vüqarıdı,
Bir sənət mülkünün şirin barıdı,
Könlümün istəyi, arzularıdı,
Sənətimin ilk ustadı Gülabı.

Ay Əşrəf fəxr eylə, öyün hər zaman,
Gərək ki naşükür olmasın insan.
Kainat durduqca yaddaşda qalan,
Tarixdi, varlıqdı addı Gülabı.

## QASIM ABBASƏLİYEV

### ELƏ ÇALMA

Elə çalma o tellәri, Gülabı,
Ürəyimin lap ürəyi alışar.
Bir dəli həsrətə əsir olmuşam,
Dünya yenə gözlərimdə qarışar.

Bu dünyanın yox sirrini qananı,
Hicran saldı gözlərimdən zamanı.
Eşq oduna alışanın, yananın,
Qübar yenər bədəninə sarışar.

Barmaqların alov vurur Kərəmə,
Asta-asta atəş düşür aləmə.
Dözəmməyib bu hicrana, bu qəmə,
Qasım durub Məcnun ilə yarışar.

## İSA NƏSİBOV

### TELLİ SAZ

Bu dünya əzəldən bir tamaşadır,
İnsanı xoş niyyət, ümid yaşadır.
Ürəyimdə arzularım qoşadır,
Biri Gülabıdı, biri telli saz.

Elimin, obamın dövləti varı,
Ozan dünyamızın həm tacidarı,
Ustad sənətkarın son yadigarı,
Biri Gülabıdı, biri telli saz.

Vurğundu sənətə könlüm əzəldən,
Ruhum qidalanır şeir, qəzəldən.
İki şeyi qoru, Tanrı, nəzərdən
Biri Gülabıdı, biri telli saz.

İsa xoş arzular, xoş günlər dilər,
Zərin də qədrini zərgərlər bilər.
Bilirəm xalqımın qəlbindəkilər,
Biri Gülabıdı, biri telli saz.

## ŞAİR DƏRYEYNUR

### GÜLABIYA

Quşlar da dayanır, məleykələr də,
Gülabı səsini qaldıran zaman.
Açır pəncərəni şux gözəllər də,
Barmaqlar Kərəmi yandıran zaman.

Başlıyanda köhnə Dilqəm havası,
Gəlir düşür yada gözəllər xası.
Qanan deyir sənətinin ustası,
Çalıb, qanmıyanı qandıran zaman.

Şair Dəryeynuram gül əvəzində,
Yar çəkərsə dara qul əvəzində,
Dastan bağışlaram pul əvəzində,
Bu şair könlümü dindirən zaman.

## SƏDİ YARADANQULU

### KÖNLÜMÜ

Oynatdın yerindən elə könlümü,
Döndərdin bir kövrək telə könlümü.
Gülabı, qardaşım, bir "Dilqəmi" çal,
Qoyma sızlar qalsın belə könlümü.

Gözləri oxşayan bizim dağlardan,
"Yastı qar","Əyri qar" gül oylaqlardan,
Sərin çeşmələrdən, buz bulaqlardan,
Söhbət sal bir gətir dilə könlümü.

Onun o yerlərdə hələ gözü var,
Alışıb yanmağa odu, közü var.
Dillərdə nəğməsi, neçə sözü var,
Çəkdikcə çəkiynən zilə könlümü.

Sədi toy-büsatdan doyası deyil,
Bir el şənliyindən qalası deyil.
Özgə havaları duyası deyil,
Köklə mənim "Sarıtel"ə könlümü.

***11.02.2004***

## ELDAR TƏBİB

### SƏNƏ

Can Gülabı, götür sazı bir də çal,
Sinən üstə çox yaraşır saz sənə.
Elə bilmə valeh olan tək mənəm,
"Əhsən"deyir fəsli bahar, yaz sənə.

Haqdan yanan atəşin var,odun var,
Öz məzən var, öz ləzzətin, dadın var.
Borçalıda sazın boyda adın var,
Harda olsaq güvənmişik biz sənə.

Haqdan paysan, göydən düşən qismətsən,
Ədəbinlə ərənlərə nisbətsən.
Təpə-dırnaq abır, həya, ismətsən,
Həsəd çəkir qadın, gəlin, qız sənə.

"Urfanı"nla çox xəyala dalmışam,
Sənətinə valeh-heyran qalmışam.
Vurğun olub meyli sənə salmışam,
Düz əlimi uzatmışam düz sənə.

Xalq içində çoxdu xətir-hörmətin,
Ucaldıqca el verəcək qiymətin.
**Təbib** dilər əyilməsin qamətin,
Yaşayasan qismət olsun yüz sənə.

# GÜLABI GÖZƏL

*(təcnis)*

Barmaqlar pərdədə nəğmə toxuyur,
Çalır telli sazı Gülabı gözəl.
Bu nəğmədən yer-göy ətir qoxuyur,
Elə bil tökülür gül abı gözəl.

Eşqindən nur salıb bu göy, çəmənə,
O yanı Borçalı, bu Göyçə mənə.
Nə gözəl yaraşır bu göy çəmənə,
Yarpaqları yaşıl, gül abı gözəl.

Gül sevməyən bilməz gül tərəfi nə,
**Təbibi** göndərin Gül tərəfinə.
Öləndə döndərin gül tərəfinə,
Səpin məzarına gülabı gözəl.

***2002***

**ARİF NÜVƏDİLİ**

## AŞIQ GÜLABI

Başımı başlara qoşub bu axşam,
Təbrikə gəlmişəm, Aşıq Gülabı.
Bir-iki kəlməynən tərif deməyə,
Ehtiyac bilmişəm, Aşıq Gülabı.

Sən bir uca dağsan, kölgəsi qalın,
Mən nabələd yolçu, ayağı yalın,
Önündə sənintək əhli-kamalın,
Heyran kəsilmişəm, Aşıq Gülabı.

İzn ver şəninə bir söz söyləyim,
Qarşında baş əyim, təzim eyləyim.
Qüdrətim çatmadı çoxa, neyləyim
Şair deyilmişəm, Aşıq Gülabı.

***29.11.2001***

## GƏNCƏLİ NADİR BƏY MUSTAFA OĞLU

### TELİNƏ QURBAN

Çal, ağrını alım, bir Kərəmi çal,
Barmağına qurban, əlinə qurban.
O yanan Kərəmi yenə yada sal,
Sazının titrəyən telinə qurban.

Min il bir-birinə həsrətli kimi
Görüşdür, qovuşdur mizrabla simi.
Çal, oxu, Gülabı, coşdur təbimi,
A şirin ləhcəli, dilinə qurban.

Dostun məclisində çal tufan eylə,
Saz səsi əlləşsin asiman ilə.
Bu yerdə Nadir bəy gəlibən dilə,
Desin sazlı sözlü elinə qurban.

***19.11.1999***

## ZAKİR QURBANOV (ŞİNDİLƏR)

### GÜLABI

Ad-san qoydun Borçalının elində,
Dil açırmış telli saz da əlində,
Əzbər oldun dost-tanışlar dilində,
Öz sazınla çala-çala, Gülabı.

Yada saldın telli sazın dadını,
Süburt etdin alovunu, odunu.
Yaşadırsan Xındı Məmməd adını,
Öz sazınla çala-çala, Gülabı.

Eşidənlər valeh olub sazına,
Heyran olub baharına, yazına.
Sənsən dözən el-obanın nazına,
Öz sazınla çala-çala, Gülabı.

Bir ümman var sənin geniş sinəndə,
Odlanırsan telli sazın dinəndə.
Ucalırsan ellər səndən deyəndə,
Öz sazınla çala-çala, Gülabı.

Yığılsa bir yerə aşıqlar piri
Sənə tay olanmaz yüzündən biri.
Bir yada sal "Ruhani"də Zakiri,
Öz sazınla çala-çala Gülabı.

***20.03.2000***

## ZAKİR NADİROĞLU

### YANDIR MƏNI, YANDIRIYNAN, GÜLABI

Yəhya bəyin havasıdır “Dilqəmi”,
Dağlar üstə soraqlaynan sən məni.
Gəl yandırma “Zarıncı”yla aləmi,
Saz ağlayır “Kərəmi”də Gülabı,
Yandır məni, yandırıynan, Gülabı.

Bu nə sirdir saz danışır əlində,
Ürək yanır, saz alışır əlində.
Səbr edirsən zikr dolaşır dilində,
Saz ağlayır “Kərəmi”də Gülabı,
Yandır məni, yandırıynan, Gülabı.

Qəm yerində şum eyləyən dərd əkər,
Ocaq alovlanar, kömür nə çəkər?
Fikirləşmə qərib-qərib bu qədər,
Saz ağlayır “Kərəmi”də Gülabı,
Yandır məni, yandırıynan, Gülabı.

"Ustadnamə" ustadların havası,
Əsli qızın Kərəm oldu butası.
Açılmadı, tilsim oldu yaxası,
Saz ağlayır "Kərəmi"də, Gülabı,
Yandır məni, yandırıynan, Gülabı.

Yandır məni, ağlat məni, a qardaş,
Dağlar üstə dağlat məni, a qardaş
Təbibim ol, sağalt məni, a qardaş,
Saz ağlayır "Kərəmi"də, Gülabı,
Yandır məni, yandırıynan, Gülabı.

Zakir yaman kövrək olub, nə dansın,
Qəflət yuxusundan durğuz, oyansın.
Sən özün ki dərdi bilib duyansan,
Saz ağlayır "Kərəmi"də, Gülabı,
Yandır məni, yandırıynan, Gülabı.

***Bakı – 2005***

## ŞAHSOLTAN

*Gülabının 50 illik yubileyinə*

Nəğməsin dinləyib xəyala daldım,
Sazın laylasını çaldı Gülabı.
Adını biləndə lap heyran qaldım,
Cənnətdən dərilmiş güldü Gülabı.

Haqqın dərgahından nurlanıb gəlib,
Min bir xəzinədən varlanıb gəlib.
Nurlu bulaqlardan gurlanıb gəlib,
Kükrəyən çaylardı, seldi Gülabı.

İncə barmaqları dəydikcə simə,
Sehrli pərdələr edir zümzümə.
Sədası yetişsə xəstə qəlbinə,
Sağalar deyər ki, pirdi Gülabı.

Xındı Məmməd özü olmuş ustadı,
Odur ki, göylərə yüksəlir adı.
Sazınnan coşdurur yaxını-yadı,
Söhbətdə şəkərdi, baldı Gülabı.

Şahsoltanam, bu söz qalsın yadigar,
Sənətkara böyük məhəbbətim var.
Fəxr etsin Borçalı, o ulu diyar,
Dünyanı heyrətə saldı Gülabı.

***29.11.2001***

**İSA NƏSİBOV**

## AŞIQ GÜLABIYA MƏKTUB

Saza-sözə tamarzıyıq nə vaxtdı,
Bəsdi daha dözəmmirik qayıt, gəl.
Yəqin bu da ya qismətdi, ya baxtdı,
Sənsiz söz də düzəmmirik qayıt, gəl.
Vallah, daha dözəmmirik qayıt, gəl.

Ata yurdun qübarlıdır hər daşı,
Ağlamaqdan quruyubdu göz yaşı.
Xramın qırağı, yarğanın qaşı,
Gül bitirmir, üzəmmirik, qayıt, gəl.
Vallah, daha dözəmmirik qayıt gəl

Yaş da ötüb, ömrü duman alıbdı,
Zalım dövran bizi ayrı salıbdı.
Sənsiz dostlar yaman yetim qalıbdı,
Bu əhvalı çözəmmirik, qayıt, gəl,
Vallah, daha dözəmmirik, qayıt, gəl

Bülbül də lal olub oxumur sənsiz,
İsa da ölübdü gorsuz, kəfənsiz.
Siz ki anlayırsız, siz ki bilirsiz,
Kişi kimi gəzəmmirik, qayıt, gəl,
Vallah, daha dözəmmirik, qayıt, gəl.

## KİTABIN İÇİNDƏKİLƏR

**Sazın Gülabısı, sözün sərrafı.........................3**
**DİVANİLƏR**
Lailahə illəllah..............................................14
Danış.........................................................15
**GƏRAYLILAR**
Aşıq İbrahimə................................................17
Torpağıma dəymə! Dəymə!...........................18
Könlüm........................................................19
Cəlilim, Cəlilim..............................................20
Dünya..........................................................21
Dözmürəm.....................................................22
Yaralandım, yaralandım.................................23
Sazım, Allahım..............................................24
Ayrılmaram....................................................25
Sənin acığına.................................................26
Qurban olum..................................................27
Sus bülbülüm..................................................28
Qardaş..........................................................29
**QOŞMALAR**
Ömrüm qocalır...............................................31
Gəl..............................................................32
Telli sazım.....................................................33
Gecələr.........................................................34
Belə dost da var.............................................35
Mübarək olsun...............................................36
Neyləyim.......................................................37

Arzu ilə İmkanın mübahisəsi..........................38
Səməd bəyim.................................................39
Gəlmədin......................................................40
Allah...........................................................41
Məhəbbət-Nifrət............................................42
Axşam oldu...................................................43
İlahi səslər....................................................44
Pir idim axı...................................................45
Başına döndüyüm...........................................46
Sazımdan soruş..............................................47
Saxla sən məni...............................................48
İşıq ver mənə.................................................49
Ağlaram........................................................50
Amanat.........................................................51
Əhməd Sadaxlının 60 illik yubileyinə............52
Aşıq Arif Başkeçidliyə...................................53
Oğul gərək....................................................54
Vallah..........................................................55
Dəhşət..........................................................56
Ölümdən qorxmuram......................................57
Yahu dərvişəm...............................................58
Yazığım gəlir.................................................59
Ana..............................................................60
Yaş o yaş deyil...............................................61
Günahkar......................................................62
Mən olmayanda..............................................63
Şair Osmana..................................................64
Nədəndi........................................................65
Mən..............................................................66

Qısqanıram mən..............................................67
Gəl..............................................................68
Düşərsən.....................................................69
Xoşbəxt günlərim...........................................70
İncidim.........................................................71
Məni............................................................72
Təhləli qardaşım İsmayıla..............................73
Dur gedək....................................................74
Ustaddı ki ustaddı..........................................75
Gedəkmi......................................................76
Ayxan balam.................................................77
Nəydi mənim günahım..................................78
Ehtiyacım var................................................79
İndi..............................................................80
Vallah..........................................................81
Qardaş ölümü................................................82
Ay Buta........................................................83
Sərasər eylər (təcnis)......................................84
Sazım (müxəmməs).......................................85

## AŞIQ GÜLABIYA HƏSR EDİLMİŞ ŞEİRLƏR

**Əşrəf Xındı Məmməd oğlu**
Xandı Gülabı.................................................88
Ay qağa........................................................89
Gülabı...........................................................90
**Qasım Abbasəliyev**
Elə çalma.....................................................92

**İsa Nəsibov**
Telli saz....................................................................93
**Şair Dəryeynur**
Gülabıya....................................................................94
**Sədi Yaradanqulu**
Könlümü....................................................................95
**Eldar Təbib**
Sənə..........................................................................96
Gülabı gözəl (təcnis).......................................97
**Arif Nüvədili**
Aşıq Gülabı..............................................................98
**Gəncəli Nadir bəy Mustafa oğlu**
Telinə qurban.........................................................99
**Zakir Qurbanov (Şindilər)**
Gülabı....................................................................100
**Zakir Nadiroğlu**
Yandır məni, yandırıynan, Gülabı...................101
**Şahsoltan**
Gülabının 50 illik yubileyinə..........................103
**İsa Nəsibov**
Aşıq Gülabıya məktub....................................104

**AŞIQ GÜLABI**

# MƏN OLMAYANDA

**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

**Kompüterdə yığanlar:** Vüsal Abiyev
Validə Bədəlova
**Korrektor:** Vüsal Abiyev

Yığılmağa verilmiş **14.04.2013**
Çapa imzalanmış **22.05.2013**
Şərti çap vərəqi **7.** Sifariş № **82**
Kağız formatı **60x84 1/16.** Tiraj **500**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail:** elm_ve_tehsil@box.az
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.